# GDU-da Ulu Öndərin doğum gününə həsr edilmiş beynəlxalq konfrans keçirilmişdir





**Gəncə Dövlət Universitetində (GDU) Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101 illiyinə həsr edilmiş "Müasir təbiət və iqtisad elmlərinin aktual problemləri" mözsunda beynəlxalq elmi konfrans keçirilmişdir.**

Müasir kimya, biologiya, fizika və iqtisad elmlərinin aktual problemlərinə həsr edilmiş konfransda iştirakçılara mövzu ilə bağlı 7 ölkədən daxil olan 700-dən çox məqalə təqdim olunmuşdur.

Konfrans iştirakçıları öncə Ulu Öndərin Gəncənin mərkəzi meydanında ucaldılmış abidəsini ziyarət etmişlər, sonra universitetdə Heydər Əliyevin həyat və fəaliyyətinə həsr edilmiş kitab və rəsm əsərlərindən ibarət sərgiyə baxmışlar.

Konfransı GDU-nun rektoru, professor Yusif Yusibov açaraq müasir Azərbaycanın qurucusu və memarı Heydər Əliyevin ölkəmizin hərtərəfli inkişafı, qüdrətlənməsi naminə misilsiz xidmətlərindən danışaraq diqqətə çatdırmışdır ki, Ümummilli Lider Azərbaycanı zamanın mürəkkəb tarixi sınaqlarından uğurla çıxarmış və onu əbədi müstəqilliyə qovuşdurmuşdur: "Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi bütün dövrlər möhtəşəm quruculuq, tərəqqi və hərtərəfli inkişaf mərhələləri kimi şanlı tariximizin qızıl səhifələridir. Ulu Öndərin Azərbaycana rəhbərliyi dövründə ölkəmizdə digər sahələr kimi, ekoloji tarazlığın qorunması, ətraf mühitin mühafizəsi sahəsində də əsaslı dönüş yaranmış, zəngin flora və fauna müxtəlifliyinin qorunub saxlanması həmişə prioritet məsələ olmuşdur. Ulu Öndərdən sonra dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən qətiyyətli siyasət nəticəsində isə Azərbaycan regionun ən güclü və suveren dövlətinə çevrilmişdir".

Sonra Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov çıxış edərək xalqımızın və dövlətimizin əldə etdiyi bütün uğurların təməlində Ulu Öndər Heydər Əliyev siyasəti və işıqlı əməlləri dayandığını bildirmişdir: "Prezident İlham Əliyev isə Ümummilli Liderin siyasi xəttinə sadiq qalaraq müstəqil ölkəmizi daha uğurlu və işıqlı gələcəyə doğru aparır".

Türkiyənin Gəncədəki baş konsulu Recep Öztop konfransda müzakirə olunan mövzuların əhəmiyyətindən danışaraq, mövcud ekoloji problemlərin aradan qaldırılması istiqamətində və ətraf mühitlə bağlı problemlərin həll olunmasında konfransda dinləniləcək elmi məruzələrin faydalı olacağını vurğulamışdır.

Tədbirdə akademik Yusif Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun direktoru, akademik Vaqif Abbasovun, Pakistan Respublikasının Sarqodha Universitetinin professoru Navar Məhəmməd Tahirin, Gəncə Dövlət Universitetinin Botanika kafedrasının müdiri, AMEA-nın müxbir üzvü, professor Vaqif Novruzovun elmi məruzələri dinlənilmişdir.

Beynəlxalq elmi konfrans işini 16 bölmə iclasında davam etdirmişdir.

***S.ƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 7 may, № 93.- S.10.